**“Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 3, maddələr 171, 226, 4, maddə 287; 1998, 1, maddə 16; 2001, 12, maddə 736; 2002, 6, maddə 328, 12, maddə 692; 2003, 1, maddə 16; 2005, 8, maddə 684; 2009, 5, maddə 314, 7, maddələr 512, 517; 2011, 2, maddə 71, 7, maddə 604; 2013, 3, maddə 217, 4, maddə 355) 22-ci maddəsinə aşağıdakı məzmunda dördüncü, beşinci və altıncı hissələr əlavə edilsin:

“Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi qaydaları, habelə nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlər dövlət büdcəsinə köçürülür. Həmin vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Müvafiq icra hakimiyyəti orqanı nəzarət markalarının hazırlanmasını təmin edir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
1227-IVQD